YOXSULLUQ EYİB DEYİL

Rus ədiblərindən A.N.Ostrovskiyə nəzirə

ƏFRADİ-MƏCLİS

Hacı Dəmir – Yetmiş yaşında bir tacir
Səfər – Hacı Dəmirin qardaşı, qırx yaşında
Yusif – Hacı Dəmirin mirzəsi, iyirmi beş yaşında
Əhməd bəy – Mülkədar bir bəy
Məclisə lazım olan şeylər: döşək (üstündə Hacı Dəmir oturmağa). Stol, dəftər, kağız, şotka, kalendar, sandalya, dəmir sandıq, dəvat, qələm

BİRİNCİ PƏRDƏ

Məclis vaqe olur hacının hücrəsində. Mirzə Yusif stolun dalında oturub hesaba baxır:

Səfər

Qardaşımdır, Yusif, bu tacirbaşı,
Mən də onun kiçik, doğma qardaşı.
Bir az burda isinməkçin qoy gəlim,
Titrəyirəm, tutmur soyuqdan əlim.

Yusif

Eybi yoxdur, gəl, qardaşıım Səfər, gəl,
İstəsən də yat, bir qədər də dincəl.

Səfər

Qovmazsan ki, məni, Yusif, burdan sən?
Bax, soyuqdan titrəyirəm, görürsən.

Yusif

Bu nə sözdür, heç belə şey olarmı,
Müsəlman da qonağını qovarmı?

Səfər

Yusif, Allah xoşbəxt eləsin səni,
Düz bir ildir qardaşım qovub məni.
Bu dərbədər Səfər qadanı alsın,
Qoy dərdimi deyim, qəlbim boşalsın.
Nə qədər ki, pulum, malım, var idi,
Mənə hər kəs yoldaş idi, yar idi.
Hər yerdə aş vardı orda baş idim,
Xana qardaş, bəylərə yoldaş idim.
Məstkən molla evinə də gedərdim,
Bir süfrədə çox vaxt nahar edərdim.
İndi heç kəs salamımı almayır,
Yoldaşlar da məni yada salmayır.
Uydum mən axmaq içkiyə, qumara,
Qoydum pulu xanəndəyə, qızlara.
Aşna dediklərim məni soydular,
Axır belə yaman günə qoydular.

Yusif

onun sözünü kəsərək

Yaxşı, indi ki, sən bunu duyursan,
Neçün qumara, içkiyə uyursan?

Səfər

Neçün? Bu aşkar şeydir, axmaqlıqdan,
Bədbəxtlikdən, yəqin ki, sarsaqlıqdan.

Yusif

Gəl tərk et içkini, olma qumarbaz.

Səfər

Sən bilmirsən, Yusif, tərk etmək olmaz.
Kimsə ki, düşsə belə bir pis yola,
Çox çətindir bir də o aqil ola.

Yusif

Necə? Nə yol?

Səfər

Dinlə şərhi-halımı,
Qoy nəql edim, sən də bil əhvalımı.
İyirmiydi atam öləndə yaşım,
Ayrılmaq istədi məndən qardaşım.
Gər danışsam məni necə ayırdı,
Mülkün çoxun öz adına qayırdı.
Bu...uzundur, Allah özü alimdir,
Mənim bu qardaşım necə zalimdir.
Hər nə isə, axır mənlə bölüşdü.
Mülklər ona, mənə pul, veksil düşdü.
Mən də burdan haydı, getdim Tiflisə,
Yoldaş oldum naəhlə, hər pisə.
Traktirdə, duxanda, padvallarda,
Keyf elədim teatrda, ballarda.

Yusif

Teatra getmək gətirməz nöqsan,
Görər o güzgüdə öz eybin insan.

Səfər

Məgər heç mən ayıq olurdum gecə,
Ta biləydim artist oynayır necə?
Anlamırdım əsla hara gedirdim,
Gedib yar-yoldaşı qonaq edirdim.
Kefli idim, pulum nə qədər vardı,
Ancaq ayıldım onda ki, qurtardı.
Baxdım gördüm nə tas qalıb, nə hamam,
Çıxmış əlimdən var-yoxum bittamam.
Könlüm içki istəyir, nə etməli,
Pul da yoxdur, kimə, hara getməli?

Tutdum satdım bircə-bircə paltarı,
Nəyim vardı: kürkü, börkü, şalvarı.
İndi görürsən bu kökdə laəlac,
Bu qış fəsli əynim cındır, qarnım ac.
Hardan getsəm baxır mənə cəmaət,
İnan ki, öldürür məni xəcalət.
Bir qəpiyim yoxdur cibimdə, acam,
Bir günümün ruzisinə möhtacam.
Ancaq oğurluğa gəlir gümanım,
Yox, ona da razı olmur vicdanım.
Soyuq dəyib, bax qurutmuş belimi,
Ovuşdurub hovxururam əlimi.
Dırnaqlarım donur, yerə döyürəm,
Öz-özümü yorulunca söyürəm.
Səhər tezdən tingələrdə dururam,
Gəlib-gedən məxluqa baş vururam,
Bundan, ondan qəpik-quruş alıram,
Üç gün-üç gün çox vaxtı ac qalıram.
Yox bir adam gedib dərdimi deyim,
Sən de görüm: nə qayırım, neyləyim?

Yusif

Bu yaramaz, yox, çarə tap başına,
Məndən olsa yenə de qardaşına.

Səfər

Yox, demərəm, çün bir dəfə getmişəm,
Ağlayaraq dərdimi ərz etmişəm.
Qovdu məni, düşdüm ayaqlarına,
Çox yalvardım arvad-uşaqlarına.
Dedim: saxla məni, qul olum sənə.
Qardaş yox, saleh oğul olum sənə.
Dedi: yoxdur heç şeyə ləyaqətin,
İtil burdan, basar məni nikbətin.
Nə etməli, Allah versin bəlasın,
Napak qulun haq dinlər iddəasın.

Yusif istəyir çıxarıb ona pul versin

Yusif, mənə pul vermə... Yəni yox,
Deyirəm ki, versən, az ver, vermə çox.

Yusif

Buyur, nə qədr istər isən verərəm,
Səndən məgər müzayiqə elərəm?

Səfər

O ağ puldur, istəmirəm, qoy dursun,
Bu bir şahı hələ bəsimdir bu gün.

Hacı Dəmir daxil olur

Hacı

Sən burdasan yenə, kim verdi rüsxət?
Bir də bura gəlməyə etdin cürət?
Deməmişəm bu ətrafa dolanma,
İtil burdan, daha artıq dayanma!

tərəfə

Bax, bax buna, üz-gözündən bit yağır,
Məsx olubdur, insana da oxşamır.
Şəxsi tutanda Allahın qəzəbi,
Əlbəttə ki, özü olar səbəbi.

Səfər

Qardaş, sənə bircə kəlmə sözüm var.

Hacı sözünü kəsərək

Hacı

Çıx bayıra, etmə buranı murdar.
Get, get. Hələ bu saat şüğlüm çoxdur.
Danışmağa sənlə vaxtım yoxdur.

Səfər gedir, Hacı çəkib hücrənin qapısını örtür

HacıYusif, bu gün bir yaxşı fikr etmişəm,
Ağsu bəyi Əhməd bəy, eşitmişəm, –
Bir az pul istər edə müamilə,
Artıq tənzil ilə bir neçə ilə.
Fikrim budur onu çağırım qonaq,
Az pul verib kəndini girov alaq.
Vədə tamamında işi düzəlməz,
Nə ki, fərin, əslin də verə bilməz.
İldən-ilə şişib artar tənzili,
Təzələrəm nastoykayla veksili.
Sonra çıxardaram kəndi əlindən,
Dolanarıq fariğ-bal hasilindən,
Bir nəfər də var aramızda dəllal,
Tanırsanmı? Binəkdar Şuşan baqqal.
Bir az şey də ona rüşvət verərik,
Gələcəkdə kəndə yiyələnərik.
Sabah gecə gələcəkdir o bizə,
Sən də nahar yeməginən gündüzə.
Axşam olcaq tez gəl bizdə, şam elə,
Yaz kağızın, işi tez tamam elə.
Mən gedirəm, var qeyri-yerdə işim,
Ancaq bununçündü bura gəlişim.

Hacı gedir. Yusif yalnız, tərəfə

Yusif

Görürsüzmü necə qara vicdandır,
İnsan cildində yırtıcı heyvandır.
Utanmır da, deyir mən müsəlmanam,
Hacıyam, möminəm, əhli-Quranam.
Görüz necə pambıq ilə baş kəsir!

Öz doğma qardaşı soyuqdan əsir,
Köhnəciyin qıyıb ona verməyir,
Artıq-artıq min-min yaman söz deyir.
Hər gün gedir camaatla namaza,
Başlayır məsciddə razü niyaza.
Bığın vurdurmuş, uzatmış saqqalı,
Ağzın etmiş qırxıq pendir motalı.
Əldə təsbih, dodaqların tərpədir,
Xalq da elə zənn edir ki, zikr edir.
Halbuki, tənzilin sayır pulunun.
Şəhrin yetim-yesirinin, dulunun
Bu fənd ilə əldən alır var-yoxun,
Qəbul edir, dolaşdırır az-çoxun.
Sonra vermir, göyə çıxsa da ünü,
Göy əskiyə düyünləyir gününü.
Mən də onun acığına Səfəri,
Tapıb verəcəyəm həmin xəbəri.
Gecə gəlsin, həm qoy yesin aşından,
Əhməd bəyin yanında qardaşından
Pul istəyəndə kəsilər əlacı.
Az da olsa, boş yola salmaz Hacı.
Qoy hücrəni bağlayım. Durum gedim,
Səfəri bu işdən xəbərdr edim.

Pərdə

İKİNCİ PƏRDƏ

Hacının evi. Bir neçə dənə stol və miz düzülüb, lampa yanır. Hacı əyləşmişdir. Yusif daxil olur

Hacı

Yusif, gəldin, gəl əyləş görək nə var?

Yusif əyləşir

Yusif

Sağlığınız, gəlməyibdir bəs olar?

Hacı

Necə olar? Yalqızca bir Əhməd bəg,
Nökərsiz, yoldaşsız bura gələcək.

Yusif

Bir adamı tək çağırmazlar qonaq.

Hacı

Bu nə sözdür, hələ uşaqsan, uşaq.
Nə var xalqı yığıb bura dolduram,
İstəyirəm mən bəyə tələ quram.
Bir az da qəlp pulum var, heç bilinməz,
Verrəm ona, xərclənə, ya xərclənməz.
Hazır veksil kağızı var, yazarıq,
Onun üçün dərin quyu qazarıq.
Bu məluna hər nə eləsən azdır,
İçgiçidir, fasiqdir, binamazdır.
Qəlp pulları verrik ona tənzilə,
Həmin burda qol qoydurruq veksilə.
Sonra getsin ha çığırsın, bağırsın,
Hər nə gəlsə əlindən qoy qayırsın.

Yusif

Hacı, bəlkə işin üstü açılar,
Xalqın yanında bizi rüsvay qılar.
Qəti-nəzər ondan da bədtər daha –
Olur bu iş acıq gələr Allaha.

Hacı

Yox, yox, sənin bu fikrin boş xəyaldır,
Bu cür adamların malı halaldır.
O Allaha, peyğəmbərə inanmır,

Açıq çaxır içir, qorxmur, utanmır.
Alimlərin dalısınca danışır.
Dindən-dondan çıxıb çox azğınlaşır.

Bu əsnada Səfər daxil olur. Hacı durur və qəzəbli bir halda

Hacı

Sənə kim rüsxət verdi gəldin bura?
İtil, itil get cəhənnəmə, gora!

Yusif

Hacı, sənin ürəyin ki, daş deyil,
Saildir bu, tutaq ki, qardaş deyil.
Nə eybi var, qoy əyləşsin, şam etsin,
Ondan sonra qovsan yenə qov getsin.

Hacı

İndi yad adam gələcək, mən necə
Qoyum onu burda qalsın bu gecə?
Görürsənmi ağzından nə iy qoxur,
Xalq yanında başımı yerə soxur.
Nə ki evə, töyləyə də qoymazlar –
Bunu, ta bəlkə, şal, qaşov oğurlar.

Səfər

Mən bilmirəm insanmısan, ya heyvan,
Beş dəqiqə səbr qılıb bir dayan!
Qoy sözümü deyim, bircə qulaq as,
Pis danışsam qovdur, döydür, daşa bas.
Düzdür, cavanlıqda yoldan azmışam,
Öz-özümçün dərin quyu qazmışam.
Səhv etmişəm pis olubdur mürəbbim,
Sən atsan da, atmaz yəqin ki, rəbbim.

Hacı kəmali-küdurətlə üzün bundan o tərəfə çevirib acıqlı dirsəklənib ona baxır.

Səfər

Görürsən ki, qardaş, ömrüm qurtarmış,
Belim bükülmüş, saqqalım ağarmış,
Naharsızam, soyuqdan tutmur əlim,
Ölmək istəyirəm, çatmır əcəlim.
Hammallığa, fəhləliyə yox canım,
Nə vaxtadək sailliklə dolanım?

Səfər dizi üstə çökmüş yalvardığı halda Əhməd bəy içəri girir və dayanıb heyrətlə onlara baxır

Səfər

İnsafa gəl, çevir məni başına,
Allah üçün rəhm elə qardaşına.
Yerdə qalmaz gözdən axan bu yaşlar,
Əlbəttə ki, Allah qulun bağışlar.

Əhməd bəy salam verir. Hacı qayıdıb onu gördükdə ayağa durur.

Hacı

Bağışlayın məni, bəy cənabları,
Xoş gəlmisiz, buyur, buyur yuxarı.

Əhməd bəy əyləşir və təarüf qaydası ilə.

Əhməd bəy

Əhvalınız, xudahafiz, ya Allah,
Eyimisiz, Yusif? Ağa Səfər, pah!
Görükmürsən, nə qayırırsan, neylirsən?
Çoxdan bizim tərəflərə gəlmirsən,
Bundan qabaq mağıl gəlib-gedirdin?

Səfər

Yaxşı oldu, sən də təşrif gətirdin.
A bəy, sən də bir qulaq ver sözümə,
Nahaq danışsam, dur tüpür üzümə.
Mən deyirəm bizim Hacı dadaşa,
Harda lazım olar qardaş qardaşa?
Görürsən ki, nə kökdəyəm, nə gündə,
Kafirin də rəhmi gələr görəndə.
Qovma məni bu halla, az utandır,
Bircə qarın çörək verib dolandır.
Yavan çörək tapsam, heç dərdim olmaz,
Yanıram, ay qardaş, tüstüm duyulmaz.
Bu mən, bu sən, bu qılıncın, bu başım,
Yoxsulluq ki, ayıb deyil, qardaşım.

Hacı

Bəsdir, daha nahaq yanma, alışma,
Aparma beynimi, uzun danışma...
Bu qədr bil aləm dönsə pilova,
Pup eləyib gözün düşsə ovcuna,
Qarışdırram onu toza, peyinə,
Bir düyü, bir suluf vermərəm sənə.
Hayıf deyil sənə mənim çörəyim?
Üzünü görcək bulanır ürəyim.
Adını qoymusan mömin, müsəlman,
Amma gecə-gündüz lül-qənbər, piyan.
Utanmırsan, bu nə qandır, nə ardır?!
Müsəlmanlıq özü səndən bizardır.
Dur ayağa, darıxdırma çox məni,
İtil, yoxsa sürütdürrəm lap səni!

Səfər durub gedir. Əhməd bəy Hacıya təəccüb və qeyzlə deyir

Əhməd bəy

Hacı, mən heç belə bilməzdim səni,
Başqa cürə aldatmışdılar məni.

Nəinki səndən mən pul götürmərəm,
Evində də bir saat oturmaram.
Burda çörək yeyib getsəm yatmağa,
Yuxumda görərəm ilan-qurbağa.
Qardaşına rəhm etməyən bir nəfər,
Başqasıyla yaxşımı rəftar edər?
Yox, yox, səndən kənar olmaq yeyraqdır,
Səndən qaçan dərd-bəladan uzaqdır.

Durur getməyə. Yusif mütəvəcceh olub deyir

Yusif

Bəy əfəndi, zəhmət çək, bir az dayan,
Getməliyəm mən də sənlə burdan.
Bir-iki sözüm var Hacıya, qoy deyim,
Buna xidmət istəmirəm eləyim.

Sonra Hacıya mütəvəcceh olub deyir.

Nə zülm oldubdur sənə, cənab Hacı,
Bu növilə olmusan qanı acı?
Bir fikr elə, yetmişə çatmış yaşın,
Müsəlmanam dersən, zəkat verməzsən,
Nəzrü-niyaz, ehsan, xeyrat verməzsən.
Bir qəpikdir sənin otuz iki dişin,
Gecə-gündüz fikrin, sənətin, işin
Bunun-onun malın məngirləməkdir.
Bir fikir elə özün, bu nə deməkdir?
Məgər sənin yoxdur həyan, abirun.
Tutalım ki, yığdın oldun da Qarun,
Səndən sonra görüm kimə qalacaq?
Arvadını bir başqası alacaq.
Dövlətinə sahib olub yeyəcək,
Ruhun üçün müxəmməslər deyəcək.

Hacı

Artıq-uzun danışma, hərzə qoduq!

Yusif Əhməd bəyin əlindən tutub kənara çəkir və deyir.

Yusif

Gəl, Əhməd bəy, bundan ucuz qurtulduq,
Yoxsa soyacaqdı sənin dərini,
Ağlar qoyacaqdı yetimlərini,
Mənim də şey verməyəcək bahama,
Xətadır yovuqluq bu cür adama.

Çıxırlar

Pərdə

1912

NEFT FONTANI

MƏCLİS ƏHLİ

Bəybala – qarasaqqal, Avropa səbkində geyinmiş upravlyayuşşi, 30 yaşında
Əhməd Məmməd – vışka sahibi. 50 yaşında
Mirzə, Şafaqat } fəhlələr
Əli Şəfi – prikazçik, 25 yaşında
Xansənəm – Mirzənin anası. 40 yaşında

ƏVVƏLİNCİ PƏRDƏ

Məclis vaqe olur Balaxanı kəndində. Sol tərəfdə qapılar. Yazı stolu, altında zənbil, üstündə kağız, qələm, mürəkkəbqabı, şotka, bir telefon aparatı, bir də Balaxanı nəqşəsi və bir neçə stul

BİRİNCİ GƏLİŞ

Bəybala (*yalqız gəzir*). Parijin vıstavkasında bizim bu dağılmış Balaxanı elə yaxşı görünür ki, daha nə deyəsən! O vaxtda ürəyimdə qoydum ki, haçan Bakıya getsəm, hər növ ilə olsa Balaxanıda özümə bir qulluq tapım. Elə də oldu, iş rast gətirdi, qulluq da tapdım. İndi bu Balaxanı ... Qara neftin, palçığın, tüstünün, hisin-pasın içində adam necə yaşasın? Çox da adam upravlyayuşşidir. Özüm də mat qalmışam ki, nə üçün bu adı mənə quyruq bağlayırlar (*Təəccüblə*). Upravlya-yuşşi! Doğrusu, şəhər kontorlarının lap alçaq nökəri bizdən yaxşı dolanır. Bunlar keçər gedər, hamısından bədtər odur ki, gündə bir dəfə kontorçu gəlib deyir: "Bu nədir? Bu qədər də piy işlənər? Piy yeyir-siniz nədir?". Çarə nədir, nə etməli? Haqq-nahaq hirsini saxlayırsan, işi salırsan zarafata, deyirsən: "A canım, a gözüm, biz siçan deyilik piy yeyək". Bir dəqiqə də rahatlığımız, dincliyimiz yoxdur. İstəyirsən bir kitab oxumağa, bir də görürsən mirzələr, fəhlələr: Ağa, jalonka düşdü quyunun içinə. Ağa, paravoyun topqası şişib. Ağa, ocaq karastıları sındırdı, saldı quyunun içinə.

Bu vaxt bir səs.